Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

# Sənətdə imzasını qoymuş sənətkar

## Kinooperator Valeri Kərimov 70 illiyində hörmətlə anılır

**Əsl sənətkar öz sənətində özünü əks etdirir. Əbəs yerə deyilmir ki, kitablar yazıçının bioqrafiyasıdır, yağlı boyalarla çəkilmiş şəkillər rəngkarın bioqrafiyasıdır. Bəs onda kinofilmlər kimin bioqrafiyasıdır? Əlbəttə, rejissorun! Bəs onda ssenarist, operator, rəssam, səs operatoru necə olsun?**

Rəngkarlıqdan və ya ədəbiyyatdan fərqli olaraq kinoda hər şey mürəkkəbdir. Çünki kino yalnız sənət deyil, həm də istehsalatdır. Misal üçün, "rejissor-operator" tandemi, birliyi yaradıcılıqdan daha çox istehsalat düşüncələrindən meydana gəlir. Lakin belə birlik, tandem həqiqətən yaradıcılıq səviyyəsinə yüksələndə filmdə onun yaradıcılarının şəxsiyyətinin əksi məsələsi heç də asan olmur.

Güclü operator fərdiyyətinin rejissor "dəstxəttinə" təsir göstərən filmlərin adlarını çəkmək istəyirəm. Rejissor H.Seyidzadə və operator X.Babayevin "Yenilməz batalyon", rejissor E.Quliyev və operator R.Ocaqovun "Bir cənub şəhərində", rejissor H.Seyidbəyli və R.İsmayılovun "Nəsimi", rejissor R.İsmayılovun və operator V.Kərimovun "Mən sizi dünyalar qədər sevirdim", rejissor R.Ocaqov və operator K.Məmmədovun "Təhminə", rejissor G.Əzimzadə və operator V.Kərimovun "Ötən ilin son gecəsi" və s. filmləri buna misal göstərmək olar.

Hətta parlaq fərdiyyətçi rejissorlar üçün yeni, maraqlı operatorla görüş, birgə iş güclü yaradıcılıq stimulu verir. Hər halda, rejissor filmin yaranmasında təyinedici simadır. Yaradıcı qrupun digər üzvlərinin vəzifəsi əsərin rejissor görməsini, rejissor konsepsiyasını tamaşaçıya çatdırmağa daha çox kömək etməkdən ibarətdir.

Təsadüfi deyil ki, rejissor Gülbəniz xanım dörd filmini - "Nəğmə dərsi", "Qaladan tapılan mücrü", "Ötən ilin son gecəsi", "Avqust gələndə" kino əsərlərini məhz operator Valeri Kərimovla çəkmişdir. Rejissor G.Əzimzadə bununla bağlı demişdir: "Valeri ilə bir neçə filmdə işləmişəm. Onun peşəkarlığı, səliqə-sahmanı, işgüzarlığı mənim diqqətimdən heç vaxt yayınmırdı. İş prosesində aramızda yaranan fikir birliyi, birgə işimizin rəvan getməsi bir çox epizodların maraqlı və baxımlı alınmasına səbəb olmuşdur. Elə buna görə də rejissorlar Valeri ilə məmnuniyyətlə işləyirdilər".

Valeri ilə Tofiq Kərimov qardaşları lap kiçik yaşlarından fotoqrafiya ilə məşğul olurdular. Sonrakı illər göstərdi ki, bu məşğulluq ötəri həvəs deyildi. Bu barədə bir qədər sonra.

Valeri Kərimov C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasına gəlməmişdən əvvəl bir neçə il istehsalatda işləmiş, bərkdən-boşdan çıxmış, zəhmətin nə olduğunu öz üzərində hiss etmişdi. O, əmək fəaliyyətinə 16 yaşında "Bakı - tuneltikinti" idarəsində fəhlə kimi başlamışdı. Fotoqrafiya ilə məşğul olduğu üçün bir il sonra iş yerini dəyişərək, kinostudiyaya gəlmişdir.

Burada işıqçı işləyən gənc oğlan kinostudiyanın qaynar həyatına tez alışır, rəhbərlik onun işgüzar olduğunu görüb xronika şöbəsinə keçirir, Valeriyə operator assistenti vəzifəsi tapşırılır. Bu vəzifədə o, xeyli işləməli olur. Kinostudiyanın qaynar həyatı, özünün işgüzarlığı, əməksevərliyi gəncin gələcəkdə quruluşçu operator kimi ixtisaslaşmasında əhəmiyyətli rol oynayır. V.Kərimov bu sənəti dərindən öyrənmək, ali savad almaq, əsl peşəkar kinooperator olmaq istəyirdi. Elə bu istəklə də o, 60-cı illərin sonunda Moskvaya gedir, ÜDKİ-nin kinooperatorluq fakültəsində təhsil alır. Kinematoqrafiya İnstitutunda oxuduğu illər çox səmərəli və faydalı olur.

Müəllimlərindən aldığı dərin bilik, zəhmətə qatlaşıb gecə-gündüz çalışması, kinooperatorluq sənətini incəliklərinə qədər öyrənməsi öz nəticəsini göstərdi. Gənc operator diplom işini uğurla müdafiə edib, doğma Bakıya, doğulub boya-başa çatdığı şəhərə qayıtdı. Kinostudiyada gənc operatorun ilk böyük işi "Çarvadarların izi ilə" bədii televiziya filmi oldu.

Film yazıçı və dramaturq İlyas Əfəndiyevin məşhur "Körpüsalanlar" povestinin motivləri əsasında 1974-cü ildə lentə alınmışdır.

Çarvadarlar əvvəllər keçilməz və təhlükəli cığırlardan yol salıb, yerli sənətkarların hazırladıqları malları uzaq ölkələrə aparan cəsur, güclü və igid oğullara deyirdilər. Filmin adı da buradan götürülmüşdür. Əsərin qəhrəmanları ulu babalarının açdıqları cığırla, saldıqları izlə gedərək yollar çəkən inşaatçılardır. Bu filmdə mövzu ilə bağlı çox maraqlı və gözoxşayan mənzərələr var. Operator həmin mənzərələri sevərək lentə almış, Azərbaycan təbiətini, onun zəhmət adamlarını tamaşaçılara da sevdirə bilmişdir.

Elə həmin il Valeri "Ömrün səhifələri" kinoalmanaxında iki novellanı çəkməyə dəvət alır. "Baladadaşın ilk məhəbbəti" novellasında rejissor F.Əliyevlə, "Nəğmə dərsi"ndə isə rejissor G.Əzimzadə ilə işləyir.

Birinci filmdə əgər ilk məhəbbətin təmiz və ülviliyindən söhbət açılırsa, ikinci filmdə şəxsi həyatı uğursuz qurulan gənc fəhlənin balaca oğlu ilə gizli görüşlərindən və söhbətlərindən danışılır. Göründüyü kimi, hər iki filmdə gənc qəhrəmanların keçirdikləri hiss və həyəcanlar, onların hadisələrlə bağlı psixoloji vəziyyətləri ön plana çıxarılmışdır.

Kinooperator V.Kərimovun çəkdiyi filmlərin arasında müxtəlif janrda və mövzuda filmlər vardır. Məsələn, "Alma almaya bənzər", "Yuxu" kinokomediyalarını, "De ki, məni sevirsən", "Qaladan tapılan mücrü" lirik-macəra, "Arxadan vurulan zərbə" detektiv, "Qızıl uçurum" melodramını, "Qorxma, mən səninləyəm", "Yarımçıq qalmış mahnı" musiqili filmlərini, "Ailə" sosial-dramını, müharibə mövzusunda "Sizi dünyalar qədər sevirdim", müasir mövzuda "Bir ailəlik bağ evi", "İlıq dənizdə buz parçası", "Ötən ilin son gecəsi", "Avqust gələndə" "Yay gününün xəzan yarpaqları", "Süreyya" və s. filmləri buna misal göstərmək olar.

Lirik komediya janrında yaradılmış "Yuxu" filmindəki hadisələr bizim günlərdə səfalı Abşeron qəsəbələrindən birində, baş qəhrəman Əliabbasın yuxusu ətrafında cərəyan edir. Filmdəki hadisələri izlədikcə kadrların rəng bütövlüyünü görürük. Operator istər iri, istərsə də orta planlarda işləməklə maraqlı və koloritli kinoportretlər yaratmağa müvəffəq olur.

"Bir ailəlik bağ evi" filmindəki hadisələr əvvəldən axıra kimi sakit intonasiyada təsvir olunur. Operator V.Kərimovun kamerası tələsmədən əvvəlcə filmin baş qəhrəmanı Eldarın evində, sonra dəniz sahilindəki bağ evində cərəyan edən hadisələri lentə köçürür, valideynlərlə övladlar arasında yaranmış problemləri tamaşaçılara çatdırmağa çalışır.

Ümumiyyətlə, rejissorlar V.Kərimovla birgə işləməkdən razılıq edirdilər. Filmin çəkilişində əsas tənzimləyici sima rejissordur. Bununla belə onun operatorla birgə işi, fikir birliyinin vacibliyi əsas şərtlərdəndir. Çünki tamaşaçı ekranda baş verən hadisələri operatorun gözü ilə görür və müşayiət edir. Ona görə də rejissor operatora inanmalı, ona etibar etməlidir. V.Kərimovla işləyən rejissorlar da bu operatora filmlərini etibar edir, ona inanırdılar.

Arif Babayev, Maqsud İbrahimbəyov, Arif Babayev, Gülbəniz Əzimzadə, Rasim İsmayılov, Tofiq İsmayılov, Fikrət Əliyev, Yuli Qusman... V.Kərimov bu rejissorlarla işləmiş, düz 36 il Azərbaycan kinosunun inkişafına xidmət etmişdir.

Musiqili film çəkmək çox çətindir. Çünki belə filmlərdə bir sıra musiqi parçaları, mahnılar səslənir. Əvvəlcədən fonoqrama yazılmış bu mahnıları hadisələrin gedişi prosesində aktyorların ifasında səsləndirmək heç də asan məsələ deyil. Bunun üçün bütün yaradıcı qrupun,ələlxüsus operatorun üzərinə məsuliyyətli bir vəzifə düşür.

"Qorxma, mən səninləyəm" filminə baxarkən bunun nə demək olduğunu bir daha yəqin edəcəksiniz. Bu televiziya filminin janrını dəqiq təyin etmək çətindir. Burada musiqi də, gözəl mahnılar da var, sərgüzəştlər, gözlənilməz, qeyri-adi hadisələr də. Hadisələri dinamik inkişaf edən bu filmin ritmi hər kadrda görünür. Təqiblər, at çapmalar, əlbəyaxa döyüşlər bir-birini əvəz edir. Bütün bunları bacarıqla, zövqlə lentə alan operator V.Kərimov ekranda Azərbaycanın füsunkar təbiətini, onun mənzərəli dağlarını və vadilərini sevə-sevə təcəssüm etdirmişdir.



V.Kərimovun operator olduğu daha bir filmi burada xatırlamaq yerinə düşərdi. Bu, rejissor R.İsmayılovun çəkdiyi "Sizi dünyalar qədər sevirdim" bədii filmidir. Bu qəhrəmanlıq dramını bəzən qəhrəmanlıq balladası da adlandırırlar. Lakin film tarixi şəxsiyyətdən - Azərbaycan xalqının rəşadətli oğlu, igid sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun həyat və döyüş bioqrafiyasından söhbət açır.

Filmdəki hadisələr I Pribaltika cəbhəsində axırıncı döyüş zamanı həlak olmuş Həzi Aslanovun ömrünün son günlərində cərəyan edir. Burada Həzi Aslanovun və onun Volqa çayının sahillərindən Pribaltikaya qədər döyüş yolu keçmiş igid tankçılarının hünəri dəqiqliklə və inandırıcı şəkildə ekranda canlandırılmışdır. Müsbət haldır ki, bu filmin çəkilişlərinə çoxlu əsgərlər və hərbi texnika cəlb olunmuşdu. Ədalət naminə demək lazımdır ki, biz əvvəlki filmlərimizdə bu cür miqyaslı döyüş səhnələrini əks etdirən hərbi möhtəşəm kino əsərlərini xatırlaya bilmirik.

Film Stalinqrad altında tank döyüşü ilə başlayır. Əlbəttə, belə batal səhnələrini çəkmək çox çətindir. Bakı kinostudiyasının bu sahədə təcrübəsi çox olmasa da, baş operator Valeri Kərimov öz köməkçiləri ilə birgə çox işləməli olmuşdur. Bu filmdə quruluşçu operatorun işini ən yüksək balla qiymətləndirmək lazımdır. Çünki onun kamerası döyüş səhnələrindən başqa insan qəlbinin hərarətini, döyüntülərini, mən deyərdim ki, hərəkətini verə bilmiş, döyüşlərin getdiyi ərazinin təbiətinin gözəlliyini göstərə bilmişdir.

Sovet İttifaqı Qəhrəmanı Adil Quliyev "Bütün həyatı döyüşdür" məqaləsində yazmışdır: "Filmin yaradıcıları Belarusiyada, qarlı çöllərdə, çoxsaylı hərbi texnika ilə mürəkkəb çəkilişlər aparmışlar. Demək istəyirəm ki, heç bir kadrda bunlar butaforiya kimi görünməmişdir. Döyüş səhnələri Valeri Kərimov tərəfindən yaxşı çəkilmişdir. O, ekranda döyüşün abı-havasını, bunun detallarını verə bilmişdir..." (Qaz. "Bakinskiy raboçiy", 25 fevralə 1986 q.)

V.Kərimov son vaxtlar kinoda özünü yeni sahədə - rejissorluqda sınamaq istəyirdi. O, 1989-cu ildə bu istəyinə də nail oldu. "Debüt" studiyasında "Həmyerli" adlı qısametrajlı bədii filmə quruluş verdi. Bu kiçik filmdə rejissor çox aktual və vacib məsələlərə toxundu. Filmdə deyilir ki, xarakterlərin toqquşması və həyat şəraiti insan taleyini kəskin şəkildə dəyişə bilər. Bu dünyada öz yerini necə axtarıb tapmalı, qəlbinin səsini necə eşitməli? Film tamaşaçını bu suallar ətrafında düşünməyə çağırır.



Operator 1998-ci ildə "Ailə" filmini çəkərkən qəflətən vəfat etdi. Özü də 53 yaşında. Əgər amansız ölüm onu aramızdan aparmasaydı, bu gün biz kinorejissor V.Kərimovun yeni filmlərinə baxa biləcəkdik...

V.Kərimov sənətkar olmaqla bərabər həm də Azərbaycan Kinematoqrafçılar İttifaqının rəhbərlərindən biri idi. O, burada formal olaraq sadəcə katib vəzifəsini tutmamışdı. İttifaqın bütün təşkilati işləri onun öhdəsinə düşmüşdü. O, burada da öz işinə vicdanla yanaşır, kinomuzun inkişafı naminə hər iki cəbhədə-yaradıcılıq sahəsində və ictimai işlərdə həvəsə çalışırdı. Çünki o, kino adamı idi, kinonun vurğunu idi. Başqa cür hərəkət edə bilməzdi.

Onun işə olan can yandırması, adamlara qarşı diqqət və qayğısı, insanpərvərliyi Valeri Kərimovu bir şəxsiyyət kimi formalaşdırmış və tanıtdırmışdı.

Kərimovlar ailəsini kinematoqrafçılar ailəsi adlandırırdılar. Valerinin kiçik qardaşı Tofiq 30 ildən artıq kinostudiyada fotoqraf-rəssam kimi 40-dan artıq filmdə işləmişdir. Valerinin həyat yoldaşı Tatyana xanım kinostudiyada səs operatoru vəzifəsində çalışır. O, Leninqrad Kino Mühəndisləri İnstitutunu bitirmişdir. Valerinin yeganə oğlu Teymur Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini kinoşünaslıq ixtisası üzrə bitirsə də, anasının peşəsinə yiyələnmiş, səs operatoru kimi "Həqiqət anı", "Qraf Krestovski" çoxseriyalı televiziya bədii və s. filmlərdə çalışmışdır.

Azərbaycanın əməkdar incəsənət xadimi, kinooperator və kinorejissor Valeri Kərimovun yeri görünür. Çünki o, sənət aləmində öz imzasını qoymuş sənətkarlarımızdandır.



**Aydın Kazımzadə, əməkdar incəsənət xadimi**

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*